# HESABAT

Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun “Mobillik-3” qrantı (**Qrant № EİF-Mob-3-2013-6(12)-14/05/3**) əsasında mən, Ukrayna Respublikası, Kiyev şəhərində yerləşən P.L.Şupik adına Milli Diplomdan sonrakı Tibbi Təhsil Akademiyası nəzdində “Endofors” endoskopik cərrahiyyə üzrə tədris mərkəzində 03 Mart 2014-cü il tarixindən 01 Aprel 2014-cü il tarixinədək “Laparoskopik cərrahiyyədən əsas intensiv praktiki kurs” qısamüddətli təcrübəkeçmə kursunda iştirak etmişəm. Tədris mərkəzi *“Karl Storz”* şirkətinin regional nümayəndəliyinin himayəsində olan, ən müasir avadanlıqla təchiz olunmuş, Kiyev şəhərində analoqu olmayan “Oberiq” universal klinikasında yerləşmişdir. İş vaxtı hər gün (bazar günü istisna olmaqla) saat 08.30-dan saat 17.30-a qədər olmuşdur.

30 gün ərzində davam edən Kursun nəzəri hissəsi 6 mühazirədən ibarət olmuşdur. Mühazirə mövzuları giriş, avadanlıq və ləvazimatlar, laparoskopiyada istifadə olunan enerji növləri, laparoskopik xolesistektomiya, laparoskopik appendektomiya və laparoskopik əməliyyatların fəsadlaşmaları olmuşdur. Mühazirələr laparoskopik cərrahiyyənin adı cəkilən sahə və mövzularının bu günkü, ən müasir durumuna həsr olunmaqla interaktiv şəkildə aparılırdı. Laparoskopik cərrahiyyədə müasir texnologiyalar, müxtəlif alətlər ani nümayiş olunaraq üstün və çatışmayan cəhətləri analiz edilmişdir. Əsasən Avropa mənbələrinə istinad etməklə laparoskopik xolesistektomiya və appendektomiya kimi əməliyyatlar barəsində geniş ədəbiyyat məlumatlarını təqdim etməklə yanaşı, kursun rəhbərinin, həmçinin, öz, çoxillik təcrübəsini əhatə edən videomaterialları (əməliyyatların videoyazıları) üzərində təhlil aparılmışdır. Bu zaman, adı çəkilən əməliyyatların həm standart gedişi, həm də intraoperasion baş verə biləcək mümkün qeyri standart vəziyyətləri, öd kisəsi axarı, öd kisəsi arteriyası, sağ qaraciyər arteriyası və digər mühüm qonşu strukturların anatomik variasiyaları, yatrogen zədələnmələrini nümayiş edən unikal videoyazılar təqdim edilmişdir. Kursun rəhbəri tərəfindən tədris olunan bütün materiallar elektron şəkildə əlavə olaraq verilmiş, gələcəkdə lazım ola biləcək, mövzuya uyğun internet istinad ünvanları göstərilmişdir.

Praktiki vərdişlərin tədrisi və mənimsənməsi vaxt və həcm baxımından kursun əsas hissəsini təşkil etmişdir. Bu zaman, praktiki vərdişlər *Karl Storz* və *Ethicon* trenajor və mulyajları üzərində kursun rəhbəri Dr. Mendel Nikolay Andreyeviç tərəfindən nümayiş edilir və mənimsənməsinə nəzarət olunurdu. Mənimsənməsi nəzərdə tutulan praktiki vərdişlər: laparoskopik avadanlığın əməliyyata hazırlanması, laparoskopik cihazların sterilizasiyası, Veres iynəsi və Hasson üsulu ilə pnevmoperitoneumun əldə olunması,

laparoskopik sıxıcılarla manipulyasiyalar, toxumaların qayçı, elektrokoaqulyator və ultrasəs dissektoru ilə ayrılması, arteriya və öd kisəsi axarı üzərinə kliplərin qoyulması, düyünlərin müxtəlif üsul və saplarla intrakorporal və ekstrakorporal qoyulub bağlanması, lapaskopik cihazlar vasitəsilə tikişlərin qoyulması ilk olaraq *in vitro* trenajor və mulyajlar üzərində tam yiyələndikən sonra əməliyyat otağında real, *in vivo* şəraitində icra olunurdu. Praktiki vərdişlərin laborator şəraitdə öyrənib məminmsənməsinə ayrılan vaxt və resurslar kifayət və qənaətbəxş olmuşdur.

Ümumiyyətlə, tibb sahəsində hər hansı bir təcrübəkeçmə kursunun müvəffəgiyyətli olmasını təmin edən xəstələr üzərində (rəhbərin nəzarəti altında) təşkil olunmuş iş praktiki vərdişlərin mənimsəməsi üçün istinavi əhəmiyyətə malikdir. Bu kursun digər mövcud kurslardan üstünlüyü onun müddəti və real cərrahi əməliyyatlarda aktiv iştirakdan ibarət olmuşdur. Kurs ərzində planlı şəkildə laparoskopik üsulla aparılmış 1 xolesistektomiya və xoledoxolitotomiya, 9 xolesistektomiya, 2 appendektomiya, 1 varikosele kimi əməliyyatlarda aktiv və müvəffəgiyyətlə iştirak etmişəm.

Kursa cəlb olunduğum müddətdə onun proqramına daxil olmayan, lakin xoş təsadüf nəticəsində baş vermiş digər, ödənişli 1 günlük "Laborator heyvanlar üzərində Cərrahiyyədə azinvaziv texnologiyalar" mövzusunda 14 Mart 2014-cü il tarixində keçirilmiş *"Master klas"*-da iştirak etmşəm. Bu zaman, *"Karl Storz"* avadanlığı ilə təchiz olunmuş veterinar klinikada donuz üzərində "Laparoskpik xolesistektomiya" əməliyyatını müvəffəgiyyətlə icra edərək əlavə sertifikat almışam.

Kursun sonunda Ukrayna Respublikası P.L.Şupik adına Milli Diplomdan sonrakı Tibbi Təhsil Akademiyası tərəfindən ixtisasartırma sertifikatı verilmişdir. Təcrübəkeçmə kursu müvəffəgiyyətli keçmişdir, qarşıda qoyulan məqsədlərə nail olduğumu etiraf edə bilərəm. Kursun əsas məqamlarını təsvir edən fotomateriallar əlavə təqdim olunur.

Sonda, təcrübəkeçmə kursuna yaranan şərait və laparoskopik cərrah ixtisasına yiyələndiyimə görə başda hörmətli Respublika Prezidenti olmaqla Elmin İnkişaf Fonduna öz dərin və sonsuz minnətdarlığımı bildirirəm. Öz üzərimdə daimi işləməyi davam etməklə və əldə etdiyim bilik və bacarıqları tələbələrə çatdırmaqla birgə, xəstələrin dünya standartlarına uyğun müalicəsinin aparılması naminə bütün varlığımla çalışacam.

Dr. Qorxmaz Əhmədov 03 Aprel 2014